“Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir”
*Cəlil Məmmədquluzadə*



# ÇIRAQ

23 fevral 2018-ci il № 1 (250) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə




• “Azərbaycana investisiyalar qoyulmağa və ölkəmiz sürətlə inkişaf etməyə başlamışdır. 2003-cü ildən sonra da Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Şadam ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir.”

• «Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişaf haqqında düşünürük. Bu gün biz özümüzü dünya miqyasında müstəqil ölkə kimi təqdim edə bilmişik, müstəqil siyasət aparan ölkə kimi tanınırıq. Əlbəttə ki, bunun təməlində güclü siyasi iradə, xalq-iqtidar birliyi, bir çox başqa amillər dayanır. Onların arasında iqtisadi müstəqillik xüsusi yer tutur.»

• «Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da edirik. Ordumuzun maddi-texniki bazası möhkəmlənir.»

• «Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır.»

• «Bütün azadlıqlar-söz, mətbuat, sərbəst toplaşma azadlığı tam təmin edilir və ediləcəkdir. Bu, bizim prinsipial siyasətimizdir. Mən tam əminəm ki, əgər biz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirmək istəyiriksə,-biz bunu istəyirik,-mütləq siyasi və iqtisadi islahatlar paralel xətlə davam etdirilməlidir.»

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

# FEVRAL AYININ RƏSMİ XRONİKASI




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri xanım Jülide Sarıeroğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də «Smart Afrika» Təşəbbüsünün icraçı direktoru Hamadoun Toureni qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayında iştirak edən beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqlarının nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonu qəbul edib.

Azərbaycan Respublikasının Pre-



zidenti İlham Əliyev fevralın 6-da ABŞ Dövlət katibi müavininin müşaviri xanım Bricet Brinki qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Azərbaycanın həyata keçirdiyi qlobal layihələrə toxunan Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» layihəsinə ABŞ-ın verdiyi dəstəyin önəmini vurğuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

Fevralın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) VI qurultayı işə başlayıb.

YAP-ın 700 mindən çox üzvünü təmsil edən nümayəndələrin iştirak etdikləri qurultayda partiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləyib. Dövlətimizin başçısı YAP-ın yaranmasından və keçdiyi yoldan, partiyanın banisi ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən, təşkilatın ölkəmizin və cəmiyyətimizin həyatındakı rolundan bəhs etdi.

Yeni Azərbaycan Partiyasının VI qurultayı 2018-ci il aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilib. Qərar yekdilliklə qəbul olunub.

Futbol üzrə dünya çempionatı ərəfəsində dünya turnesi çərçivəsində çempionatın Kubokunun əsli FİFA-Coc\a-Cola və AFFA tərəfindən Azərbaycana gətirilib. Fevralın 9-da kubok Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 12-də Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Formula-1 Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edib. Görüşdə Azərbaycanda Formula-1 yarışlarının çox yaxşı təşkil olunduğu və yüksək səviyyədə keçirildiyi vurğulandı. Qeyd edildi ki, Formula-1 yarışlarının Azərbaycanda təşkili xeyli sayda insanların paytaxtımızda gedən inkişafla yaxından tanış olması ilə bərabər, eyni zamanda, Azərbaycana turist axınının təmin edilməsi işinə də öz töhfəsini verib.

Azərbaycan Respublikasının Pre-



zidenti İlham Əliyev fevralın 13-də Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxelenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi xanım Baronessa Emma Nikolsonu qəbul edib.

Dövlətimizin başçısı Baronessa Emma Nikolsonun Cənub Qaz Dəhlizi Məşvərət Şurasının Bakıda keçiriləcək 4-cü iclasında iştirakına görə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. BP şirkəti ilə Azərbaycan arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd edildi.

Fevralın 15-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü iclası işə başlayıb.

Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç ilə, Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak ilə, Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili ilə, İtaliyanın iqtisadi inkişaf nazirinin müavini İvan Skalfarotta ilə görüşü olub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əmir Hatəminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərova “İstiqlal” ordenini təqdim edib.

**AZƏRTAC**

## Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında

### *Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.
2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2018-ci il aprelin 11-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı şəhəri, 5 fevral 2018-ci il.***

## SİYƏZƏN RAYONU SEÇKİLƏRƏ TAM HAZIRDIR

Seçkilər hər bir xalqın tarixində mühüm rol oynayan, onun gələcək inkişaf yolunu müəyyənləşdirən mühüm siyasi proses kimi xarakterizə olunur. Azərbaycan Respublikasında keçiriləcək Prezident seçkilərinəsə qısa vaxt qalır. Azərbaycanda prezident seçkilərinə hazırlıq əvvəlki illədəki kimi yüksək səviyyədədir. Bununla bağlı ölkəmzin hər yerində olduğu kimi, Siyəzən rayonunda da ciddi hazırlıq işləri görülür.

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Siyəzən rayon təşkilatı hazırlıq işlərinə start verib. 54 saylı Şabran-Siyəzən dairəsi üzrə Siyəzən rayonunda yerləşən 24 seçki məntəqəsi üzrə məşvərətçi və müşahidəçilərin siyahısı tam şəkildə hazırlanmışdır. Siyəzən YAP qərargahının 11 nəfərdən ibarət qərargah üzvü təyin edilmişdir. Məntəqələrdə Seçici siyahıları dəqiqləşdirilib. Seçkilərə hazırlıqla bağlı dairə seçki komissiyasında mütəmadi iclaslar keçirilib, treninqlər təşkil olunub, müxtəlif mövzular müzakirəyə çıxarılaraq müvafiq qərarlar qəbul edilib. Məntəqələr telefonlaşdırılıb, katib və üzvlər, habelə seçkini izləyəcək beynəlxalq və yerli müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Bununla da Siyəzən rayonunda seçki gününə hazırlığın vəziyyəti demək olar ki, tam yekunlaşıb. Fevralın 16-dan etibarən, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Heydər oğlu Əliyevin seçkilərdə namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasına başlanılıb. Əhali imzatoplama kampaniyasında çox böyük ruh yüksəkliyi ilə iştirak edərək böyük aktivlik nümayiş etdirirlər.

Aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkiləri ölkəmizdə çox əlamətdar ictimai-siyasi hadisədir. Seçkilərin tam demokratik şəraitdə və şəffaf keçirilməsi üçün bütün lazımi tədbirlər görülür. Bunun üçün hər cür imkan var və bu imkanlardan səmərəli şəkildə istifadə edilməkdədir. 2018-ci il aprelin 11-nə təyin edilmiş prezident seçkiləri ilə əlaqədar MSK tərəfindən təsdiq olunmuş Fəaliyyət Proqramına əsasən intensiv şəkildə atılan addımlar ardıcıl və keyfiyyətlə gerçəkləşdirilir. Bütün bu tədbirlərin həyata keçirilməsində başlıca məqsəd isə Azərbaycan vətəndaşlarının seçki hüquqlarının daha səmərəli təmin olunmasıdır.

YAP Siyəzən rayon təşkilatının Gənclər Birliyi, Siyəzən rayon Qadınlar Şurası da qarşıdan gələn Prezident seçkilərinə hazırlıq işlərində fəallıq göstərir. Eyni zamanda ilk dəfə səs verən gənclərin də seçkilərdə iştirakı təmin edilərək, onların siyahısı tutulmuşdur.

Bu gün Azərbaycan dövlətinin daha güclü olmasını, ölkəmizin sabit və davamlı inkişafını, xalqımızın daha yaxşı yaşamasını istəyən hər bir şəxsin ürəyindəndir. İlham Əliyev Azərbaycan tarixində bir çox ilklərə imza atmış görkəmli dövlət və siyasi xadimdir. Onun seçkilərdə alternativi yoxdur və parlaq qələbə qazanacağı şəksizdir. Bizim real namizədimiz möhtərəm cənab İlham Əliyevdir. YAP üzvləri İlham Əliyevi dəstəkləyir, Onun ətrafında ölkəmizin rifahı naminə sıx birləşirlər.

**Etibar HEYDƏROV,**
**Yeni Azərbaycan Partiyası Siyəzən rayon təşkilatının sədri.**

## XX ƏSRİN ƏN DƏHŞƏTLİ FACİƏLƏRİNDƏN BİRİ-XOCALI SOYQIRIMI




Xocalı soyqırımı-XX əsrin sonlarında ermənilərin törətdikləri soyqırım aktı. Bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri.

Xocalı soyqırımı XX əsrin digər dəhşətli faciələri- Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi faciələri ilə bir sırada dayanır.

Hadisələrdən 26 il keçməsinə baxmayaraq Xocalı soyqırımını törədənlər hələ də məsuliyyətə cəlb olunmayıblar. Bu cür cəzasızlıq regionda sülhün əldə edilməsi, ədalətin bərpası üçün də ciddi maneədir. Ermənistan hərbi qüvvələri yenə də mütəmadi olaraq atəşkəs rejimini hər gün pozur, Azərbaycanın dinc əhalisini və mülki obyektləri atəşə tutur. Bu da insan itkisi ilə nəticələnir.

Artıq bir neçə ildir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət» kampaniyası cinayətkarları məsuliyyətə cəlb etmək üçün dünyanın bütün qüvvələrini səfərbər edir. Əsas məqsəd soyqırımın dəhşətlərini dünya ictimaiyyətinə çatdırmaq və bütün bəşəriyyəti zorakılığa qarşı mübarizədə birləşdirməkdir. Ən əsası isə bu cinayəti törədənlərin məsuliyyətə cəlb edilməsidir.

Dünya bilməlidir ki, bu cinayət təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün bəşəriyyətə qarşı törədilib. Ermənistanda müxtəlif dövrlərdə yüksək vəzifələr tutan Seyran Ohanyan, hazırkı prezident Serj Sarkisyan, həmçinin Robert Köçəryan və başqaları Xocalı soyqırımının təqsirkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir.

Bəli, cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü beynəlxalq ictimaiyyət tərəfindən qınanmalıdır. Beynəlxalq təşkilatlar, dünya ölkələrinin parlamentləri Ermənistanın Azərbaycan torpaqlarında törətdikləri faciələr, o cümlədən Xocalı soyqırımına beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verməlidir.

Xocalı soyqırımında erməni cinayətkarları 613 nəfəri qətlə yetirib. Onların arasında uşaqlar, qadınlar, qocalar və mülki əhali də var. 8 ailə bütünlüklə məhv edilib. 25 uşaq valideynlərindən birini itirərək yetim qalıbdır. 1000 nəfərədək insan ömürlük şikəst olub. Həmin faciə gecəsi 1275 nəfər insan əsir götürülüb. 150 nəfərin taleyi hələ də məlum deyil.

**R. MURADOVA.**

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Hüseynov Asif Həbib oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 6 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | cümə axşamı |
| 7 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2018-ci ilin mart ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| S. №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1. | Yenikənd kəndi, Yenikənd tam orta məktəbin binası | 09-03-2018 | 12:30 |
| 2. | Siyəzənkənd, açıq havada | 30-03-2018 | 12:00 |

## Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| S. №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Quliyev Əhməd Əli oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Cəfərov Natiq Xəlil oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Xaçmaz Regional Sukanal idarəsinin Siyəzən abonent işləri sahəsinin rəisi | Cabbarov Eldar Pənah oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdiri | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 10. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktor əvəzi | Allahyarov Bəybala Ağa oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 11. | Siyəzən Rayon Kənd Təsərrüfatı İdarəsinin rəis əvəzi | Hüseynov Ənvər Əlbala oğlu | Hər iş günü saat 10:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Heydərov Etibar Murad oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi | Nemətov Samir Sabir oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 16 fevral 2018-ci il tarixli, 12 nömrəli Sərəncamı ilə 11 aprel 2018-ci il tarixdə keçiriləcək Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar «Sərbəst toplaşmaq azadlığı haqqında» Qanuna uyğun olaraq Siyəzən rayonu ərazisində açıq və qapalı tədbirlərin keçirilməsi və təşviqat aparılması üçün aşağıdakı yerlər müəyyənləşdirilmişdir.**

**1. Açıq yer-Siyəzən şəhər stadionu**

**2. Qapalı yer-Siyəzən Rayon Mədəniyyət Mərkəzi**

# 54 saylı Şabran-Siyəzən Seçki Dairəsinin Siyəzən rayonu üzrə seçki məntəqələrinin DİSLOKASİYASI

| Seçki məntəqələrinin nömrəsi | Seçki məntəqəsinin hüdudları (seçki məntəqəsi yaşayış məntəqəsinin bir hissəsini əhatə etdikdə evlərin nömrələri nəzərə alınmaqla küçələrin adları, bir neçə yaşayış məntəqəsini əhatə etdikdə yaşayış məntəqələrinin adları göstərilir) | Məntəqə seçki komissiyalarının ünvanı, yerləşdiyi yer | Səsvermə otaqlarının yeri | Məntəqə seçki komissiyasının telefon nömrəsi |
|---|---|---|---|---|
| 46 | Siyəzən şəhərinin H. Əliyev küçəsi 95-149 tək nömrəli evlər, M. Müşfiq, Babək 57-84 №-li evlər, Nizami, B. Səfəroğlu, C. Cabbarlı küçələri | Siyəzən şəhəri, C. Cabbarlı küçəsi 43, 1 saylı tam orta məktəbin binası | 11 | (23)304-04-90 |
| 47 | Siyəzən şəhərinin H. Əliyev küçəsi 152-204 cüt nömrəli evlər, F. Bayramov 18-51, Vidadi 40-64, A. Qaradağlı 47-77, Sabir 25-130 nömrəli evlər, F. Əliməmmədov, M. Ə. Rəsulzadə, Ə. Vahid, Ə. Cabbarov, 28 May və D. Turabov küçələri | Siyəzən şəhəri, H. Əliyev küçəsi 153, «2 saylı Yol İstismar» MMC-nin binası | - | (23)304-23-51 |
| 48 | Siyəzən şəhərinin H. Aslanov 1-29 (1, 2, 3, 4 №-li dalanlar daxil olmaqla), İ. Qayıbov 1-49, M. Zəkiyev 1-26 №-li evlər, Füzuli, A. Mustafayev və S. Xeyrullayev küçələri | Siyəzən şəhəri, Babək küçəsi 46a, 3 saylı tam orta məktəbin binası | 1 | (23)304-03-17 |
| 49 | Siyəzən şəhərinin H. Əliyev küçəsi 41, 43-93 tək №-li , 88, 96-150 cüt №-li evlər, Vaqif, S. Dağlı küçələri, F. Bayramov 1-17, Vidadi 1-38, A. Qaradağlı 1-46, Sabir 1-24, M. Zəkiyev 27, Babək 49 №-li evlər | Siyəzən şəhəri, Vaqif küçəsi 1a, 6 saylı məktəb-liseyin binası | - | (23)304-10-95 |
| 50 | Siyəzən şəhərinin T. İsmayılov küçəsi 5-16, 18, 44, 50; H. Əliyev küçəsi 15, 17, 19, 21, 23, 25, 27, 29, 31 və 33 №-li çoxmərtəbəli evlər, NQÇİ-nin korpusları | Siyəzən şəhəri, T. İsmayılov küçəsi 1a, 2 saylı tam orta məktəbin binası | - | (23)304-29-00 |
| 51 | Siyəzən şəhərinin Babək 1-44 №-li evlər, Şəhriyar, Xətai, S. Vurğun və N. Nərimanov küçələri | Siyəzən şəhəri, Şəhriyar küçəsi 4, Qızıl-Burun Dəmir Yolu stansiyasının idarə binası | - | (23)304-28-71 |
| 52 | Siyəzən şəhərinin H. Əliyev küçəsi 4-86 cüt №-li evlər, 9, 11A, 13 nömrəli evlər, H. Aslanov küçəsi 30-62, İ. Qayıbov küçəsi 50-93 №-li evlər, 20 Yanvar, B. Dəmirov və Ş. Baxşıyev küçələri | Siyəzən şəhəri, T. İsmayılov küçəsi, Siyəzən Peşə məktəbinin binası | - | (23)304-08-48 |
| 53 | Siyəzən şəhərinin T. İsmayılov küçəsi 19-40, 47-49, 51, 52, 53 və H. Əliyev küçəsindəki 7 №-li binalar | Siyəzən şəhəri, T. İsmayılov küçəsi 47a, Siyəzən Qazma Sexinin binası | - | (23)304-16-34 |
| 54 | Siyəzən şəhərinin H. Talıbov küçəsi | Siyəzən şəhəri, H. Talıbov küçəsi 13, 4 saylı tam orta məktəbin binası | - | (23)304-45-70 |
| 70 | Siyəzən şəhərinin Su kəməri yaşayış sahəsi, A. Zahirov, Q. Qoçəliyev və B. Bayramov küçələri | Siyəzən şəhəri, H. Talıbov küçəsi 13, 4 saylı tam orta məktəbin binası | - | (23)304-47-28 |
| 55 | Yenikənd kəndi | Siyəzən rayonu Yenikənd kənd tam orta məktəbin binası | - | (23)306-30-82 |
| 56 | Gilgilçay dəmir yolu stansiyasının alt və üst hissəsindəki evlər və Kolanı kəndi | Siyəzən rayonu Yenikənd kəndi, Gilgilçay stansiya ümumi orta məktəbin binası | - | (23)306-30-41 |
| 57 | Tuğay kəndi | Siyəzən rayonu Tuğay kənd ümumi orta məktəbin binası | - | (23)308-64-02 |
| 58 | Gilgilçay qəsəbəsi | Siyəzən rayonu Gilgilçay qəsəbə tam orta məktəbin binası | - | (23)306-50-26 |
| 59 | Böyük Həmyə kəndi | Siyəzən rayonu Böyük Həmyə kənd tam orta məktəbin binası | - | (23)306-40-82 |
| 60 | Balaca Həmyə kəndi | Siyəzən rayonu Balaca Həmyə kənd tam orta məktəbin binası | - | (23)306-45-39 |
| 61 | Beşdam, Siyəzən, Nardaran və Dərə Zarat kəndləri | Siyəzən rayonu Beşdam kənd ümumi orta məktəbin binası | - | (23)306-60-18 |
| 62 | Zarat, Qalaşıxı və Çəndahar kəndləri | Siyəzən rayonu Zarat kənd tam orta məktəbin binası | - | (23)306-10-44 |
| 63 | Eynibulaq kəndi | Siyəzən rayonu Eynibulaq kənd tam orta məktəbin binası | - | (23)305-43-54 |
| 64 | Sədan, Çarxana, Sağolcan və Müşkülqazma kəndləri | Siyəzən rayonu Sədan kənd tam orta məktəbin binası | - | (23)306-70-79 |
| 65 | Məşrif, Qalaaltı, Daşlı Çalğan, Orta Çalğan və Qərəh kəndləri | Siyəzən rayonu Məşrif kənd tam orta məktəbin binası | - | (23)306-80-17 |
| 66 | Qozağacı kəndi | Siyəzən rayonu Qozağacı kənd kitabxanasının binası | - | (23)308-63-05 |
| 67 | Dağ Quşçu və Əlməkolu kəndləri | Siyəzən rayonu Dağ Quşçu kənd tam orta məktəbin binası | - | (23)306-20-41 |
| 68 | Yanıq Ələz, Yuxarı Ələz, Qaragöz, Hacışəkər, Ərziküş, Köhnə Quşçu və Künövşə kəndləri | Siyəzən rayonu Yanıq Ələz kənd ümumi orta məktəbin binası | - | (23)308-62-21 |

**Dairə seçki komissiyasının sədri: Saleh Təhməzov**
**Katibi: Qoşqar Mikayılov**
**Katibi: Muradəlizadə**

# ŞƏHİDLƏRİMİZİN QANI YERDƏ QALMAYACAQ



Siyəzən rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları tərəfindən şəhər ümumtəhsil məktəblərində «Xocalı uşaqların gözü ilə», «Xocalıya ədalət», «Xocalı soyqırımını unutma» adlı sorğular keçirilib. İlk öncə Xocalı faciəsi zamanı şəhid olan vətəndaşlarımızın xatirəsi 1 dəqiqəlik sükutla yad edildi. Sonra Xocalı soyqırımının dəhşətləri haqqında şagirdlərə ümumi məlumat verilərək qeyd edildi ki, Xocalı soyqırımı-XX əsrin sonunda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi ən ağır cinayətdir. 1992-ci il fevralın 26-da Xocalıda baş verənlər Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Bu cinayətin səbəbkarı isə Azərbaycan torpaqları hesabına «Böyük Ermənistan» qurmaq xülyasına düşmüş, xalqımıza qənim kəsilmiş ermənilərdir.

Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra Xocalı faciəsi ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı aktı kimi təsbit olundu. Ulu Öndər Heydər Əliyevin sayəsində Xocalı soyqırımının dünyaya tanıdılması istiqamətində xeyli iş görüldü. Ümummilli liderimizin «Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında» 1997-ci il fevralın 25-də imzaladığı sərəncamla hər il fevral ayının 26-sı saat 17-00-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Heydər Əliyev hər il faciənin ildönümündə Xocalı soyqırımı ilə bağlı xalqa müraciət etmiş, faciənin bütün azərbaycanlıların qan yaddaşına çevrildiyini vurğulamışdır.

İnanırıq ki, yaxın gələcəkdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək, bununla da şəhidlərimizin qanı yerdə qalmayacaq.

Sonra sorğular zamanı məktəblilərə Azərbaycanın tarixi, coğrafiyası, ədəbiyyatı, o cümlədən əsrlər boyu ermənilər tərəfindən vətəndaşlarımıza qarşı törədilmiş etnik təmizləmə, soyqırım və işğal siyasətindən və digər sahələrdən şifahi suallar verilmiş, onların ümumi bilik səviyyələri yoxlanılmışdır. Sorğulara verilmiş cavablara əsasən, ümumi nəticə qənaətbəxş hesab edilmişdir. Sonda şagirdlərin Xocalı soyqırımına həsr etdikləri şeirlər, təqdimatlar, qısa səhnəciklər, maraqla dinlənilmiş, videoya baxılmışdır.

**Ramilə SEYİDOVA,**
**Siyəzən rayon Heydər Əliyevi Mərkəzinin direktoru.**

# TİBBİ MÜAYİNƏLƏR APARILIR

Ölkə əhalisinin profilaktik tibbi müayinələrdən keçirilməsi barədə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına, eləcə də Səhiyyə Nazirliyinin 30.01.2018-ci il tarixli N 10-S saylı sərəncamına əsasən 12 fevral 2018-ci il tarixdən-12 may 2018-ci il tarixədək ölkə əhalisinin profilaktik tibbi müayinəsinə başlanılmışdır və bu müayinələr rayonun hər iki tibb müəssisəsi-Mərkəzi rayon Poliklinikası və Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzi tərəfindən həyata keçirilir.

2017-ci ildə Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzi tərəfindən 12110 nəfər müayinədən keçirilmiş, aşkarlanmış 1760 ilkin xəstə ambulator müalicəyə, 94 nəfər xəstə stasionar müalicəyə cəlb olunmuşdur. 2 nəfər xəstə isə ixtisaslaşdırılmış tibbi yardım almaq məqsədilə Bakı şəhərinə göndərilmişdir.

2018-ci ilin fevral ayının 12-dən bu günə kimi Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzində 2088 nəfər tibbi müayinədən keçirilmişdir. Müayinələr zamanı aşkar edilmiş 283 nəfər ilkin xəstə ambulator müalicəyə, 14 xəstə isə stasionar müalicəyə cəlb olunmuşdur. 1 nəfər xəstə ixtisaslaşdırılmış tibbi yardım almaq üçün Bakı şəhərinə göndərilmişdir. Tibbi müayinələrin aparılması üçün xəstəxanamızda hər bir şərait vardır.

**Dadaş HÜMBƏTOV,**
**Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin Baş həkimi.**

*Neftçi sözü*

# RUH YÜKSƏKLİYİ İLƏ

2018-ci il Prezident seçkiləri ilidir. 2017-ci ildə ölkədə digər məsələlərlə yanaşı iqtisadiyyatda, xarici və daxili siyasətdə, sənayedə, kənd təsərrüfatında və həmçinin neft sənayesində uğurlar əldə olundu. Bu il ölkəmizin həyatında çox əlamətdar bir hadisə baş verdi. Azərbaycanda 2 milyard ton neftin hasil edilməsi tarixi hadisədir. Azərbaycan neftçiləri bütün dövrlərdə Azərbaycan xalqına xidmət etmişlər. Müstəqillik dövründə onların zəhməti hesabına Azərbaycan böyük iqtisadi potensial yarada bilmişdir. Neftçi Azərbaycanda çox şərəfli və hörmətli peşədir, həmişə belə olub, bu gün də belədir.

Biz «Siyəzənneft» NQÇİ-nin işçiləri SOCAR ailəsinin bir hissəsi olaraq, seçkilərə qabaqcadan və çox yüksək ruh yüksəkliyi ilə hazırlaşırıq. «Siyəzənneft» Neft və Qazçıxarma idarəsi artıq seçki proseslərinə start vermişdir. Ümumi fikir belədir ki, idarəmizin işçiləri ölkədə cərəyan edən sosial-iqtisadi prosesləri yaxından izləyir və bu proseslərə razılıq əlaməti olaraq, 11 aprel 2018-ci il tarixində keçiriləcək seçkilərdə çox böyük fəallıqla iştirak edəcəklər.

**Coşqun MAYILOV,**
**«Siyəzənneft» NQÇİ-nin rəis müavini.**

# GƏNCLƏR ÖN SIRADA

Gənclər dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə uğurla çalışır, ölkəmizi şərəflə yüksək səviyyədə təmsil edirlər. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır.

Prezident İlham Əliyevin imzaladığı «Azərbaycan gəncliyi 2017-2021-ci illərdə» Dövlət Proqramı ölkədə gənclər siyasətinin daha səmərəli həyata keçirilməsi istiqamətində atılan növbəti mühüm addımdır. Dövlət Proqramının məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensiallarının üzə çıxarılmasını dəstəkləməkdir. Məqsəd, həmçinin gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasına əsasən hazırlanan «Azərbaycan gəncliyi 2017-2021-ci illərdə» Dövlət Proqramında növbəti beş il ərzində gənclər sahəsində əsas istiqamətlər öz əksini tapıb. Proqramın hazırlanmasında həm yerli gənclər təşkilatları, həm beynəlxalq ekspertlər iştirak ediblər. Burada gənclərin inkişafı ilə bağlı bütün sahələr əhatə olunub.

Bu proqram ilk növbədə əvvəlki dövlət proqramlarında əldə olunan nailiyyətlər üzərində qurulub. 11 bölmədən və 104 bənddən ibarət proqramda insan hüquqlarının qorunması, gender bərabərliyi, yeni texnologiyalar vasitəsilə Azərbaycan mədəniyyətinin, tarixinin gənclərə çatdırılması, ölkəmizlə bağlı həqiqətlərin dünya miqyasında təbliği, gənclərin sağlamlığının qorunması, regionlarda gənclər arasında yeni texnologiyaların tətbiqi kimi məsələlər, həmçinin gənclərin sağlamlığı və məşğulluğu, gənclər siyasətinin səmərəliliyinin artırılması ilə bağlı bəndlər yer alıb.

Dövlət Proqramının qəbul edilməsi ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu gənclər siyasətinin daha bir uğuru və neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində növbəti addımdır.

Məlum olduğu kimi, aprelin 11-də Azərbaycanda növbəti prezident seçkiləri keçiriləcəkdir. Fevralın 12-də Bakı Konqres Mərkəzində prezident seçkilərində gənclərin və idmançıların namizədinin dəstəklənməsinə həsr olunmuş respublika toplantısı keçirilib.

Toplantıda Siyəzən rayonundan da nümayəndələr iştirak edib. Ayrı-ayrı rayonları təmsil edən gənclər çıxış edərək ölkəmizdə gənclər sahəsinə göstərilən diqqət və qayğı nəticəsində yaşadıqları bölgələrdə yaradılan imkanlardan danışıb və seçkilərdə İlham Əliyevin namizədliyini dəstəkləyəcəklərini bildiriblər. Biz də öz növbəmizdə rayon gənclərini seçkilərdə fəal iştirak edərək cənab prezidentimizə dəstək olmağa və bundan sonra da onun ətrafında daha sıx şəkildə birləşməyə dəvət edirik.

Əminik ki, biz Azərbaycan gəncləri dövlət başçısına olan inam və sevgilərin növbəti dəfə dünyaya nümayiş etdirəcək və bundan sonra da müstəqillik yollarında cənab İlham Əliyevlə birlikdə inamlı addımlarla irəliləyəcəyik.

**Nadir MƏMMƏDOV,**
**Gənclər və İdman idarəsinin rəisi**

*Ağsaqqal sözü*

# ÜRƏYİMİZİN HÖKMÜ İLƏ

« Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm». 2003-cü ildə prezident seçkiləri ərəfəsində Ulu Öndər Heydər Əliyevin İlham Əliyev haqqında uzaqgörənliklə söylədiyi bu müdrik kəlam hamımızın yadındadır.

İllər ötdü. Və illər ötdükcə bu müdrik kəlamın həqiqət olduğunu gördük. Nəinki biz gördük, tarix və zaman bunu bütün dünyaya da göstərdi. Bütün dünya şahid oldu ki, Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu dönmədən, uğurla həyata keçirir

Son 15 ildə Azərbaycan bütün sahələr üzrə inkişaf edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız hər bir sahədə böyük uğurlar qazanıb. Ölkəmizin hər bir guşəsində böyük fabriklər, zavodlar, idman kompleksləri, sağlamlıq ocaqları, təhsil müəssisələri tikilərək əhalinin istifadəsinə verilmişdir. Geniş miqyaslı tikinti-quruculuq, abadlıq işləri göz qabağındadır. Artıq bir neçə ildir ki, ölkəmiz dünyada nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrilmişdir.

Düzdür, müharibə ölüm deməkdir, özüylə fəlakət, ağrı-acı gətirir. Ancaq 2016-cı ilin aprel döyüşləri bir daha göstərdi ki, ordumuz işğal altında olan torpaqlarımızı düşməndən azad etməyə hər an qadirdir. Ən güclü ordular sırasındadır. Bu, hər birimizin qəlbini sonsuz qürur hissi ilə doldurur.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə görülən işlər xalqımızın hər bir nümayəndəsi, istər yaşlı nəsil olsun, istər cavan, fərqi yoxdur, hamı tərəfindən dəstəklənir.

Yerli camaat, eləcə də qonşu rayonların sakinləri, xüsusilə də yaşlı nəsil ata-babalarımızı yaxşı tanıyır. Biz sayılıb-seçilən seyid nəslindənik, ocaq sahibiyik. Gözümüzü açıb ailəmizdə halallıq, böyüyə hörmət, ədəb-ərkan, milli dəyərlərimizə hörmət görmüşük.

Bu gün ölkəmizdə hökm sürən ictimai-siyasi sabitliyi, əmin-amanlığı da bir ağsaqqal kimi yüksək qiymətləndirirəm. Qətiyyətlə deyə bilərəm ki, bu günümüzün reallıqları sabaha daha nikbin baxmağa əsas verir. Azərbaycanımızın sabahı da etibarlı əllərdədir. Odur ki, mən də, bütün ailə üzvlərimiz də aprelin 11-də keçiriləcək Prezident seçkilərində mütəşəkkil iştirak edəcəyik. Ulu Öndərmiz Heydər Əliyevin siyasi kursunu layaqətlə davam etdirən cənab İlham Əliyevə səs verəcəyik.

**Qəribağa SULTANOV,**
**Siyəzən şəhər sakini.**

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı:
Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1a

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 557
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83